# MƏXFİ NÜFUZ

## hekayə

Özüm də hiss etmədən alimlərin həyatına, ixtiralarına aid kitablar oxumağa həvəslənmişdim. Əcnəbi dillərdə yazılmışları da oxuyurdum. Onlar belə kitabları daha çox buraxırlar, yazılış tərzində də fərq var. Qəhrəmanı hər tərəfdən işıqlandırırlar. Direktorumuz dünyasını dəyişəndə ilk dəfə onun haqqında məqalə yazdım. Nüfuzlu "Dan ulduzu" qəzeti redaksiyasına təqdim elədim. Şöbə redaktoru ilə söhbətimiz gərgin keçdi. O, qəti surətdə bildirdi ki, belə böyük alim haqda elmi dərəcəsi olmayan müəllifin yazısını buraxmaq bizdə qəbul olunmayıb. Məqalədə akademikin, heç olmazsa professorun da adı həmmüəllif kimi yazılmalıdı.

- Bunu mən yazmışam, kiminsə adını niyə həmmüəllif kimi əlavə etməliyəm?

- Cavan oğlan, başa düşün, bizdə belə qəbul olunub, belə qayda qoyulub. Yazılmamış qayda olsa da riayət edilir.

- Böyük alimlər haqda elmi dərəcəsi olmayanların məqalələrinə, kitablarına tez-tez rast gəlirəm. Xaricdə bu adi haldı.

-Bizdə isə... yanaşma fərqlidir.

Şöbə redaktorunu dilə tutdum ki, məqaləmi oxusun, sonra bu haqda söhbətimizə qayıdarıq. O, hər səhifədə bir neçə cümləni gözdən keçirdi. Gözlərimin içinə mənasını heç də anlamadığım tərzdə baxmaqla razılaşdı. Deməli, mənə baxarkən nəsə düşünürmüş.

Təkrar görüşümüzdə qəti "yox" demirdi, amma tərəddüd edirdi. Xahiş elədim, dəfələrlə. O, xeyli yumşalmışdı:

- Açıq deyəcəyəm, hətta, mən "hə" desəm də baş redaktorumuz razılıq verməyəcək.

- İcazənizlə mən özüm onunla danışım.

Baş redaktorla söhbət daha ağır keçdi. O, kifayət qədər sərt idi. Mən də elə o qədər təkidli oldum, amma yumşaqcasına.

İlk məqaləm belə işıq üzü gördü. Elə həmin günü institut kitabxanasında qəzeti oxuyan yoldaşlardan təbriklər eşitdim. İşin sonuna yaxın şöbə müdirimiz, professorumuz məni kabinetinə çağırdı. Təbrik eşidəcəyimə kökləndiyim halda nələr eşitdim... Özbaşınalıq eləmişəm. O boyda alim haqda direksiyanın icazəsini almadan yazmışam. İcazəsiz də dərc eldirmişəm. İnstitutun böyüklərindən kimsəni həmmüəllif yazmamışam. Bunlar böyük səhvlərdi. Ümumiyyətlə, institutun hər hansı elmi əməkdaşı haqda nəsə dərc elətdirmək olmaz, direksiyanın razılığı olmadan. Belə hərəkət direksiyanı qıcıqlandırır.

Vaxt tapıb redaksiyaya yollandım, minnətdarlığımı söylədim. Şöbə redaktoru dedi ki, xoşagəlməz hadisə baş verib. Direktorumuz baş redaktora zəng vurub, iradını bildirib. Elmi dərəcəsi olmayanın o boyda alim, akademik haqda yazısının buraxılmasının yolverilməzliyini açıq deyib.

Yazı ilə bağlı söhbətlər səngimirdi. Yazıya aid xoş sözlər deyilirdi, belə səpkidə yazmağı davam etdirməyi məsləhət bilənlər oldu. Qulağıma bəzi xəbərlər çatdı. Professorumuzla direktorumuz arasında haqqımda söhbət olub. Qısası, direktor məni "sözə baxmayan" adlandırıb, professorumuzsa "yazdıqlarını dərc etdirməyə onun haqqı var", - deyib.

Aylar ötdü. Professor, yəni müdirimiz dedi:

- Direktorun sənə tapşırığı var. Onu əməlli-başlı yerinə yetirməlisən, bəlkə sənə qarşı hirsi soyuya.

Aydın oldu ki, kiminsə haqqında məqalə yazmalıyam. Gələcək qəhrəmanımın işlərinə dair material istədim. Nəsə verildi, amma az idi. Müdir bildirdi ki, direktorda mənə veriləsi başqa heç nə yoxdu. Çatışmayanı özümdən yazım. Onun haqqında nəsə bilmirdim. Deyildi ki, istedadlı alim olub, gözəl insan idi. Bunları geniş yazım. Mənim qələmim güclüdü, istəsəm yaza bilərəm. Yalan-palan yazmaq istəmədim. Çatışmayan məlumatı özüm axtarmalı oldum. Materiallar üzərində işlədim, yazını qələmə aldım, kompüterdə yığdım. Yazı hazır olanda müdirimiz məslətət verdi:

- Özünü də həmmüəllif yaz, eyib etməz. Direktoru birinci yazmalısan, problem yaranmasın.

- Bunu mən tək yazmışam, məlumat mənbələrini nə qədər axtarmışam, tapdıqlarım üzərində işləmişəm, direktorun adı niyə burada olmalıdı?

Müdir hirsləndi:

- Hər halda bizdə qayda belədi. Elmi rütbəsi, vəzifəsi yuxarı olanın adı da yazılmalıdı, həm də öndə.

- Professor, sonuncu elmi məqalədə siz məni birinci yazdınız.

- Həmin işin yerinə yetirilməsində, məqalənin yazılmasında sənin əməyin daha çox olmuşdu. Mən belə düşünürəm. Direktorunsa fikri fərqlidi, xasiyyəti də.

Söylədim ki, çoxlu yazılar oxuyuram, görürəm. Zəhməti çox olanın adı irəlidə durur. Zəhməti olmayanınsa adı yazılmayır. Direktorun adı yazılmalıdırsa, heç olmazsa ikinci yazım. Nə isə, söhbətimiz uzun çəkdi.

- Xaricə fikrin getməsin. Bizdə bəziləri özünün yazılmamış qaydalarını qoyur, riayət etməyəndə isə təsir edə biləcəyi adamlar üçün problem yaranır.

Fikir mübadiləsi uzanırdı, heç birimiz mövqeyimizi dəyişmək istəmirdik. Xəstə professor getdikcə daha çox əsəbiləşir, səbri tükənirdi:

- Axı niyə anlamırsan? Bu yazıda yazılmağa onun marağı var. O da öz maraqlarını qoruyur, bacardığı kimi, imkanları daxilində. Sən isə ədalətdən danışırsan. Yenə özünə problem yaratmaq istəyirsənmi?

- O deyəni elədim. Məqalədə İkimizin adını yazıb direktora çatdırdım.

Fasilədə kitabxanamıza düşürdüm, gələn qəzet saylarında məqalənin çıxacağını izləyirdim. Dərc olundu, ancaq mənim adım olmadan. Niyə belə?

Redaksiyada xeyli gözləməli oldum, - şöbə redaktorunun qəbuluna düşməyə növbəm çatanadək. Onlara belə daxil olub, onlar da belə verib, aydınlaşdı.

Professorumuz sualıma cavab verə bilmədi. Direktorumuzsa cavab verdi, qısaca:

- Akademiklə həmmüəllif yazılmağa heç olmazsa hər hansı elmi dərəcən olmalıdı. Belə incə məqam-ları anlayan vaxtındı. İşim çoxdu, vaxtımı alma.

Məqalə institut əməkdaşları arasında müzakirə olunubmuş. Başa düşüblər ki, mən yazmışam. Yazı üslubuma, fikri ifadə etmə tərzimə görə. Soruşdular, təsdiqlədim. Dedilər, elmi mövzuda populyar dildə yazmağı bacarıram. Elmi-texniki ifadələri müasir oxucunun səviyyəsində istifadə edirəm. Bu istiqamətdə yazmaqda davam etsəm, uğur qazanaram. Mən də müdirlə, direktorla söhbətlərimi onlara çatdırdım.

Mənimçün başlıcası dissertasiya işimin təcrübələrini aparmaq idi. Təcrübələr mürəkkəb olduğundan xüsusi hazırlıqla yanaşı həm də diqqət tələb edirdi. Bəzən dünyasını təzəcə dəyişmiş direktorumuz yada düşürdü. İndiki direktorumuzu əvvəlkiylə müqayisə edirdim, özümdən asılı olmayaraq. Fərq kifayət qədər idi. Onun müsbət cəhətləri yada düşdükcə "bəlkə kitab halında yazmağa cəhd edim?" sualı ortaya çıxdı. Arxasınca digər suallar gəldi. Bacararammı? Onun haqqında nə qədərsə materialı toplamaq çətin olmazmı? Cəhd etməyə dəyməzmi?

Gördüklərimi, eşitdiklərimi yazdım, daha doğrusu birbaşa kompüterdə yığdım. Onun haqqında institut əməkdaşlarının xatirələrini topladım, məqsədimi açıqlamadan. Elmi işləri haqda dərc edilmiş rəylər tapdım. Əldə etdiklərimi bir başdan lazım bildiyim halda işləyib kitabı yazırdım. Oğlu və nəvəsi ilə görüşdüm. Ailədəkilərlə rəftarı, evdə özünü necə aparması, boş vaxtlarda nə ilə məşğul olması haqda xatirələri dinlədim. Kitaba əlavə etdim. Yazılanlar xoşuma gəlirdi, bir cəhətdən savayı. Hamısı müsbət, hamısı tərif. Axı belə olmur. Ən böyük alimlər haqda belə kitablarda səhvlər, çatışmazlıqlar, xoşagəlməzliklər, büdrəmələr, unutqanlıqlar, lətifəsayağı nələrsə var. İdeal təsvir edilən adamlar haqda kitablar inandırıcı təsir bağışlamır, oxucu rəğbəti qazana bilmir. Kimlərinsə, eləcə də mənim arşınımla düz gəlməyən nələrisə öyrənə bildim. Sadəcə gülməli görünən hadisələr eşitdim. Təmiz adamlarda beləleri olur, onda da olmalı idi. Əlavələr elədim. Hə, bax, indi çapa verməyə dəyərdi.

Kitab münasib vaxtda işıq üzü gördü. Yəni, həm də nəhayət ki, canım təcrübələrdən qurtardı. Sevinc sevincə qarışdı. Dissertasiya yazmağa başlaya bilərdim.

Nəşriyyatdan təklif gəldi, bir neçə alim haqda kitab yazmağa. Yaxşı da qonorar verilirdi. Müqavilə bağ-lamağa razılaşdım, işə dissertasiya müdafiəsindən sonra başlamaq şərtilə.

Mənə müəllif nüsxələri kimi verilmiş mərhum direktorumuz haqda kitabdan bir neçəsini iş yoldaşlarıma, həmçinin professora payladım. Oxuyanlar, (onların arasında professorlarımız da vardı), yaxşı sözlər deyirdi. Qulağıma kimlərinsə söylədikləri çatırdı. Özümə də qısaca deyənlər olurdu. Tanımadığım professorun rəyinə "Dan ulduzu" qəzetinin səhifəsində rast gəldim. O, kitabı təhlil edərək yazmışdı. Qəhqəmanımın əsərləri araşdırılıb, həyatından maraqlı hadisələr verilib. Eyni zamanda o, ideallaşdırılmayıb. Fikir dəqiqliyi, dil gözəlliyi yerli-yerindədi. Oxuduqlarım bir yandan xoş gəldi, bir yandan da inandırıcı gəlmədi. Rəyi bir də oxudum, daha diqqətlə. Kim nə deyir, desin, var, ədalət hissi qaydasında olan adamlar var. Beləleri çox olsaydı... dünyamız dəyişərdi, gözəlləşərdi. Məndə belə fikir yarandı: - nəyin bahasına olursa-olsun öz maraqlarını qorumaq yox, haqqı, ədaləti qorumaq sağlamdır, məntiqlidir, irəli aparandır.

Deyildi ki, professor məni çağırır. Güman edirdim nə eşidəcəyimi. Bundan sonra şöbəmizin plan üzrə işlərinin təcrübələrini mən aparım. Yenə bu təcrübələr... Yanılmışdım. Tənqid elədi, ancaq direktorun adından. Məsləhətini verdi, onunla problem yaratmayım.

Qulağıma nələr çatdı. Kitab direktorun xoşuna gəlibmiş, gülməli məqamları çıxmaq şərtilə. Orada öz adını müəllif görmək istəyibmiş. Professorumuzla aralarında xoşagəlməz söhbət olubmuş. Direktorun fikrincə mən düzələn deyiləmmiş, ərizəmi yazıb öz xoşumla getməliyəm. Professorsa bildirib ki, kitabı yazan müəllif olmalıdı. Şöbədə mənim kimi ikinci eksperimentator yoxdu. Getsəm, şöbənin işləri axsıyacaq.

*(Davamı var)*

***Rəsul ƏHMƏDOV***